Məxfidir

# QAFQAZDA ERMƏNİ-TATAR QIRĞINI ERMƏNİ MƏSƏLƏSİNİN MƏRHƏLƏLƏRİNDƏN BİRİ KİMİ

## MART 1906-cı il

**Tiflis**
**Qafqaz Hərbi Dairəsi Qərargahının mətbəəsi**
**1915-ci il**

**«Azərbaycan» nəşriyyatı**
**Bakı - 1995**

**Q 11 (95)**

Tərcümə edəni **Vasif Quliyev**
Redaktoru **Sarvan Ağayev**

**Q 11 (95)**

**Qafqazda erməni-tatar qırğını erməni məsələsinin mərhələlərindən biri kimi - Bakı, «Azərbaycan» nəşriyyatı, 1995**

**Q 4804000000 - 011(95** **M 670 (07) - 95**
**Sifarişlər**

**© «Azərbaycan» nəşriyyatı**
**«Şuşa» şirkəti, 1995.**

Başıbəlalı erməni məsələsinin sonrakı inkişafını izləyərkən Asiya Türkiyəsində ermənilərin və musəlmanların qarşılıqlı münasibətinin hər halda dinc və normal xarakter[1] almağa başladığı vaxt Zaqafqaziyanın erməniləri və müsəlmanları arasında bu cür münasibətin daha da pisləşməsi faktını qeyd etmək lazım gəlir. Ötən 1905-ci il ərzində bu münasibət nəhayət, gərgin vəziyyət alaraq və hüdudlarından kənara çıxdı. Bakı, Şuşa, İrəvən, Naxçıvan və sair quberniyalarda da qanlı toqquşmalar baş verdi. Bu hadisə istər öz gözlənilməzliyi, istərsə də qeyri-adiliyi və anlaşılmazlığı ilə çoxlarını heyrətləndirdi. Bəziləri indiyə qədər də bu hadisələri anlaya və onların əsas səbəblərini başa düşə bilmir.

Bu yaxınlarda Tiflisdə öz işini başa çatdıran erməni və tatar nümayəndələrinin yığıncağı bu məsələnin həllinə yaxınlaşmağa cəhd göstərdi. Lakin əbəs yerə! Ona görə əbəs yerə ki, Qafqazda erməni-tatar qırğınının səbəblərinin rəsmi surətdə aydınlaşdırılması tərəflərdən birini hökmən bir növ ittiham aktına gətirib çıxara bilər. Qafqaz canişini, alihəzrət qraf Vorontsov-Daşkov bunu qabaqcadan görmüşdü. Qurultay açılarkən o, nümayəndələrə müraciət edərək qarşıdakı iclasların rolunu xüsusilə qeyd etmişdi: «...Əsas odur ki, cənablar, yadınızda saxlayın. Məsələ bu qırğında kimin günahkar olmasında deyil, ölkənin maddi rifahını bərbad hala salan bu bəlanın qarşısının alınması üçün məhz hansı vasitələrin təsirli olmasındadır».

Lakin erməni-tatar yığıncağının qəti surətdə nəzərdə tutulmuş bu məqsədinə baxmayaraq, onun nümayəndəlari bəzilərinin xüsusi səyləri və fəaliyyətləri sayəsində çox uzun və olduqca xarakterik mübahisələrdən sonra erməni-tatar sülhünün bərpa olunması üçün sual şəklində olan maddələrin çox geniş proqramını işləyib hazırladılar. Ançaq bu, az idi, canişinin göstərişlərinə tamamilə laqeydlik göstərərək proqramın birinci maddəsində onların tamamilə üstündən keçməli olduqları məhz, həmin məsələ müzakirəyə qoyuldu.

Demək olar ki, artıq yığıncağın lap əvvəlində tatar nümayəndələri arasında tamamilə səmimi fikirlər işlənilib hazırlanmış proqramın ən incə maddəsinə, yəni, erməni-tatar qırğınını törədən ən əsas səbəblərə toxunmamaq haqqında fikir üstünlük təşkil edirdi. «Keçmişdən əl çəkmək lazımdır, onu unutmaq, etibarlı və möhkəm şəraitdə sülh bağlamaq lazımdır». - Hacıyev deyirdi. - «Bütün məsələ bizim bundan sonra necə yaşamağımızdadır. Sülhü bərqərar edək, dostluğu yoluna qoyaq və bütün məsələlər öz-özünə həll olunacaq. Keçmişə toxunmaq lazım deyil, bu, nifaqa aparıb çıxara bilər!.. Həm bu, həm də digər tərəf qərəzkar ola bilər, ermənilər də, müsəlmanlar da günahkar ola bilər».

Tatarların bu sadə, ehtimal ki, tamamilə səmimi çıxışlarına cavab olaraq əvvəlcə ermənilərin nümayəndəsi A. İ. Xatisov etiraz edir. Bir balaca istedad sahibi olan natiq öz sözlərini məşhur kəlamlara istinad edir, məntiqlə danışaraq lazımi nəticələr çıxarırdı. Elə ilk sözlərindən sonra aydın olur ki, o, ümumiyyətlə, iclasın başqa üzvləri arasında özünə tay rəqib görmür. İstər onun üçün, istərsə də başqa erməni nümayəndələri üçün aydın oldu ki, Qafqazda erməni-tatar iğtişaşlarını doğuran əsas səbəbləri müzakirə edərkən, hər şeydən əvvəl, müxtəlif erməni gizli təşkilatlarının və komitələrinin fəaliyyətinə hökmən toxunulacaq. Onların ən əsas qanlı toqquşmalarda iştirakı heç bir şübhə doğurmayan faktdır. Və beləliklə, aydın oldu ki, Qafqazın indiki müsibətlərində, ilk növbədə, elə ermənilərin özləri günahkar olublar. Aydındır ki, bu cür hadisələr bəzi erməni nümayəndələrini az təşvişə salmırdı. Lazımi qarşıdurmaya hazırlaşmaq lazımdır.

Sonra mən iclasda bütün deyilənləri üç baxışdan müzakirəyə qoyacağam. Ermənilərin, sonra tatarların nifaq işinə neçə baxdıqlarını göstərəcəyəm və hər dəfə də axırda özümün şəxsi fikrimi söyləməyi özümə rəva biləcəyəm.

Hacıyevin bəyanatına Xatisov belə cavab verdi: «Xəstəliyə düzgün diaqnoz qoymadan xəstəni müalicə etmək olmaz. Artıq 12 ay davam edən toqquşmaların səbəblərini hərtərəfli öyrənmək indiki yığıncağın əsas məqsədidir. Yalnız bütün bu səbəbləri aydınlaşdırandan və gələcək toqquşmaları törədən səbəbləri aradan qaldırandan sonra sülhü bərqərar etmək olar. Biz səmimi və düz danışmalıyıq. Hər iki tərəf heç nədən qorxmamalıdır. Bizdən bütün həqiqəti eşitmək kiməsə ağır və acı olacaq. Bizə etimad göstərilib və əgər aydınlaşdırılması bizim əsas məqsədimiz olan bu amansız həqiqətin heç olmasa, bir zərrəsini gizlətsək, bu, etimaddan sui-istifadə olardı»[2].

Belə məntiqi və möhkəm fikirlərə qarşı, səmimiyyətə və düzgünlüyə səsləyən bu səmimi çağırışa qarşı necə etiraz etmək olardı? Ermənilər özləri, bəlkə də, onlar üçün olduqca xoşagəlməz məsələlərin müzakirəsinə cəsarətlə kömək edirdilər... «Heç nəyi gizlətməyəcəyik, amansız həqiqətin bir zərrəsini də gizlətməyəcəyik!»

Bu cür qızğın çağırışdan sonra Hacıyevin çıxışı, əlbəttə, avazımalı və yaxud heç olmasa, öz həyatı «gerçəkliyinin xeyli hissəsini müvəqqəti olaraq itirməli idi. Müvəqqəti itirmək deyirəm, çünki sonrakı iclaslarda bu çıxışın gerçəkliyi tamamilə aydın oldu. Xatisovun münaqişəyə bəhanə olan səbəblərin diaqnozu ilə məşğul olmaq təklifi isə heç bir yaxşı şeyə gətirib çıxarmadı. Həqiqətən də, proqramın birinci maddəsinin müzakirəsi heç bir nəticə vermədi. Onu «məsələ bitmişdir» - olduqca əlverişli formuldan istifadə edərək, doğrudan da, növbədən çıxarmalı oldular, çünki onun sonrakı müzakirəsi proqramın qalan bütün maddələrinə baxılmamasına qorxu törədirdi. Və nümayəndələrin iclası xüsusilə, acınacaqlı halda başa çata bilərdi.

---

[1] Erməni inqilabi təşkilatlarının mövcud olması, Van və onun ətrafları istisna olunmaqla, erməni kəndliləri üçün, xüsusən, o qədər çətin həyat şəraiti yaradır ki, onların əksəriyyətk yalnız köçurulmələrini istəyir.
[2] Bu yüngülvarı işarə elə orda oturan Qafqaz müdiriyyəti nümayəndəsinin ünvanına idi.

Xatisovun dediyi erməni nümayəndələrinin hazırlığı - həqiqətin bir zərrəsini də gizlətməmək, əlbəttə, onları məzəmmət olunmaqdan qurtarırdı. Bu hiylə ilə ermənilər yalnız müdafiə oluna biləcəkləri yox, hər bir dəqiqə, hətta hücuma keçə biləcəkləri həmin ön mövqedə yaxşıca möhkəmləndilər. Doğrudan da, artıq elə həmin iclasın sonunda, erməni nümayəndələrinin «həqiqətin bir zərrəsini də gizlətməməli» sözlərindən çaşdırılmış sadə və ürəyiaçıq Hacıyev «açığını desək, hər şeydə günahkar «Daşnaksutyun» təşkilatıdır» deyəndə Xatisov dərhal onun sözünü kəsdi. Bunu demək lazım deyil, çünki bəziləri «Daşnaksutyun» haqqında, başqaları isə panislamizm haqqında danışacaqlar. Bu, nəyə gətirib çıxara bilər?! Günahkarlar hər bir abad dövlətin əsas qanunlarını pozmaq imkan verənlərdir! Tək-tək qətllərə görə cinayətkarlar cəzalandırılır, bizdə isə kütləvi qırğın və qarət törədənlər cəzasız qalır. Padşahın nümayəndəsinin qarşısında açıqcasına bildirirəm ki, hökumət orqanları cinayətkarcasına fəaliyyətsizlik və səhlənkarlıq göstərirlər».

Bu iclasın ilk təsirli anı idi, Qafqaz müdiriyyətinə cəsarətlə və birbaşa meydan oxumaq idi. Erməni nümayəndələri hər şeydə günahkar rus hökumət orqanlarıdır və biz bunu sübut etməliyik» - deyə fikirlərini bildirərək tatarları günahlandırmaq istəmirdilər. Şübhəsiz ki, onlar üçün (öz gizli təşkilatlarının müdafiəsində dayanmaq istəyənlər üçün) gələcəkdə bu cür xarakterik müzakirələr lap münasib olardı. Onların «Daşnaksutyun»u və sair canıyananları tamamilə tək qalardılar və yığıncaq özünü bütünlüklə, bəlkə də, Qafqaz hökumət orqanlarının tam parçalanmasına həsr edərdi.

Bu məqalədə mən əsasən, Qafqazda erməni-tatar iğtişaşı proqramının birinci maddəsində dayanmağı qarşıma məqsəd qoymuşam. Bu barədə deyilənlərin hamısını təhlil etmək istəmirəm, Bu, çox yer və vaxt tələb edər. «Tiflisskiy Listok» qəzetində dərc olunmuş hesabatlardan götürdüyüm bu çıxışlardan bəzi parçaların təhlili üzərində dayanmaq mənim üçün tamamilə kifayətdir.

Tamamilə düzdür ki, xəstəliyə düzgün diaqnoz qoymadan onu müalicə etmək olmaz. Lakin proqramın birinci maddəsinin həmin diaqnozuna, ilk növbədə, kim mane olur?...Hamını təntənə ilə amansız həqiqətin bir zərrəsini də gizlətməməyə çağıran həmin Xatisovun özü mane olmurmu? Madam ki, «bütün həqiqətə qulaq asmaq» qərara alınmışdı, onda buna artıq əməl etmək lazım idi. Doğrudan da, dərhal açıq-aşkar ziddiyyətlə qarşılaşmaq lazım gəlirdi. «Heç nəyi gizlətməmək» təklifi dərhal da qadağanla erməni nümayəndələri üçün xoşagəlməz şeylər haqqında danışmamaqla bitdi. Soruşulur ki, 1904-1906-cı illər ərzində Zaqafqaziyada baş verən bütün hadisələrdə «Daşnaksutyun»un fəaliyyəti açıq-aydın görünən bir vaxtda onun haqqında danışmamaq necə mümkün ola bilər? Lakin buna baxmayaraq, tatarlar gizli erməni təşkilatlarının fəaliyyəti haqqında elə təzəcə danışmağa başlamışdılar ki, ermənilər buna onları panislamizmdə günahlandırmaqla cavab verməklə qorxudaraq tatarlara ağızlarını açmağa da imkan vermədilər. Və yalnız təəccüblənmək lazımdır ki, nə üçün tatar nümayəndələrinin arasında bu cür ittihama lazımınca və kəskin cavab verə bilən bir nəfər də tapılmadı. Əgər panislamizm, həqiqətən də, qanlı erməni-tatar toqquşmalarında müəyyən rol oynayırsa, madam ki, «həqiqətin bir zərrəsini də gizlətməmək» qərara alınıbsa, onda bunu aydınlaşdırmaq lazım idi. Amma bu panislamizmin iğtişaşa dəxli yoxdursa, onda tatar nümayəndələri bundan sonra belə məsələnin müzakirəsinin mümkünlüyünə görə təşvişə düşməsinlər. Həm də ermənilər tərəfdən bu cür ittiham və hədələr bu məsələnin, hətta səthi və üzdən təhlili zamanı öz-özünə mənasını itirirdi. Doğrudan da, fərz edək ki, Qafqazda panislamizm ideyaları çox güclü inkişaf edir, ancaq onda heç cür başa düşə bilmirsən ki, nə üçün tatarlarda bu ideyalar Qafqazın başqa xalqları ilə yox, yalnız ermənilərə vuruşmada və qarətdə meydana çıxır? Adama elə gəlir ki, belə halda əsas əziyyət çəkən adam, ilk növbədə, panislamizm ideyaları ilə mübarizə aparmalı olan təmiz rus olmalıdır. Lakin doğrudan da, buna bənzər şeyləri üzə çıxarmaq olmaz. Nə üçün tatarlar gürcülərə dəyib-dolaşmırdılar? Və nə üçün panislamizmin qurbanı yalnız bircə ermənilər idi? Bu məsələlərin müzakirəsi ermənilərə haqq qazandırmazdı.

«Qafqaz müdiriyyətinin cinayətkarcasına fəaliyyətsizliyini və səhlənkarlığı»nı ifşa etmək üçün tatarların onlarla birləşməsini təklif edən ermənilərin çağırışı isə bir fayda vermədi.

Tezliklə aydın olmağa başladı ki, tatar nümayəndələri bu işdə qətiyyən iştirak etmirlər. Xüsusilə, onlardan bəziləri, hətta rus hökumət orqanlarını müdafiə etmək üçün ehtiyat etmədən nəsə deməyə cəhd edirdi. Onlar bu cür cəhd etdiklərinə görə erməni qəzeti «Arac»(”İrəli”) tatarları «hökumət orqanlarına yaltaqlanmaq»da, onları guya, «fırıldaqçı» və s. olmaqda günahlandıraraq dərhal da bir həcv yazdı. Fevralın 24-dəki iclasda Ağayev bu məqalədən bir parça oxudu və iclasdan bu barədə fikir söyləməyi xahiş etdi. Əks halda, müsəlman nümayəndələri özlərini təhqir olunmuş hesab edərdilər.

Erməni mətbuatının xüsusilə, düşmənçiliyin aradan götürülməsi və heç olmasa pis sülh bağlanmasına vasitələr axtarılıb tapılması üçün hər iki xalqın nümayəndələrinin toplaşdığı bir vaxtda belə fitnəkarlığı, nəzakətsiz və düşməncəsinə çıxışının tamamilə yersiz olması haqqında, əlbəttə, hətta heç bir söhbət ola bilməzdi. Tatar nümayəndələrini sakitləşdirmək üçün ermənilər elə təbii, elə sadə və elə asan fikir söyləyə bilərdilər ki... Yalnız iki sözə ehtiyac vardı. «Hə, məzəmmət etmirik». Və məsələ də o saat qurtarardı. Lakin həqiqətdə tamamilə nəsə başqa bir şey baş verir. Bu məsələ üzrə qızğın müzakirələr başlayır. Erməni nümayəndələri utanmadan tatarlara sürtüşməyə başlayırlar. Sakitedici «Hə, məzəmmət etmirik!» sözləri əvəzinə, onları ayrı-ayrı qəzetlərin və hətta ayrı-ayrı adamların sözlərinə fikir verməyin lazım olmadığına,

mətbuatın rəyini pisləməyə yığıncağın dəxli olmadığına, hətta yığıncağın proqramında belə bir maddə olmamasına və s. inandırmağa başlayırlar.

Yığıncaq iştirakçılarının sakit əhval-ruhiyyələrini ciddi şəkildə pozan məsələ daha da kəskinləşməyə başladı. Ermənilər sözlərinin üstündə möhkəm durmuşdular. Onda Ağayev, görünür, sonuncu tədbirə əl atmaq qərarına gəlir və qətiyyətlə bildirir: «...Bizi fırıldaqçı və xəyanətkar adlandırdılar! Mən erməni nümayəndələrinə müraciət edirəm!.. Madam ki, onlar cavab verməyə çətinlik çəkirlər, deməli, ürəkləri ağrıyır...» Ağayevin səsində həmin an, çox güman ki, kifayət qədər qorxuducu notlar hiss olunurdu, Onun ardınca dərhal hövsələsiz və tələsik səslər eşidildi: «:.Yox! Yox! Ürəyimiz acımır!» Yığıncaq bax, belə anlar keçirirdi... Bəs, bu şəraiti kim yaratmışdı?!

## II

Proqramın birinci maddəsinin gələcək müzakirəsi zamanı cənab nümayəndələr erməni-tatar iğtişaşının əsas səbəbinə, yəni, «Daşnaksutyun»un fəaliyyətinə toxunmadılar, lakin onun yanından ötüb keçmək də mümkün deyildi. Bu, bir növ biz idi. Lakin cidanı çuvalda gizlətmək olmaz. Və bu bizlə çox qurdalanmaq lazım gəldi. Onu yenidən batırmağa çalışarkən ucları çuvaldan bayıra çox çıxdı.

Fevralın 25-dəki iclasda ermənilərin ön mövqeyindən ilk atəşi S. S. Taqionosov açdı: «Ermənilər biabırçı qardaş qırğınının əsl həqiqi səbəbini səmimiyyətlə aydınlaşdırmaq istəyirlər... Ötən iclasda cənab Hacıyev bütün günahları «Daşnaksutyun»un üstünə yıxdı. Ancaq bu suala düzgün və qətiyyətlə cavab vermək və ondan birdəfəlik qurtarmaq vaxtı gəlib çatmışdır! Biz soruşuruq: Leqal və ya qeyri-leqal təşkilatlar, ilk növbədə, ermənilərin özlərinin çox əziyyət çəkdikləri bu qırğını törədərkən hansı məqsəd güdürlər?..»

Burda yenə keçmişin tamamilə uğurlu hiyləsi təkrar olunur. Ermənilər iğtişaşın əsas səbəblərini aydınlaşdırmaq üçün öz səmimi arzularını yenə də bildirirlər, lakin onları «Daşnaksutyun» təşkilatının fəaliyyəti ilə izah etməyi birbaşa cəfəngiyyat hesab edirlər. Ona görə cəfəngiyyat hesab edirlər ki, bu təşkilat, əsasən, erməni xalqının rifahına qayğı göstərir. Bəs hansı məqsədlə o, ilk növbədə, ermənilərin özlərinin əzab-əziyyət çəkdikləri qırğın törədəcək? «Daşnaksutyun»un bu cür ittihamlarda heç olmasa bir mənası ola bilərmi?

Həqiqətən də, bu çur suala iki kəlmə ilə cavab verə bilməzsiniz. O, ona görə tam diqqətəlayiqdir ki, «Daşnaksutyun»un onda qurulmuş müdafiəsinin məharəti bu təşkilatın fəaliyyəti ilə tanış olmayan və Qafqazda erməni-tatar düşmənçiliyinin həqiqi səbəblərinin kökünü axtarıb tapmaq istəyən adamları tamamilə çaşdırır.

Mən bu məqalənin üstündə ona görə dayanıram ki, bu məsələyə qismən ətraflı cavab verəm. Lakin əvvəlcə ayrı-ayrı nümayəndələrin bu barədə söylədikləri nitqlərdən bəzi parçaların üstündə dayanacağam.

Cənab Taqionosovun «Daşnaksütyun»un ünvanına deyilmiş ittihamlarla birdəfəlik qurtarmaq çağırışına hamıdan əvvəl Hacıyev etiraz etməyə çalışır: «Ermənilərin bəziləri özləri öz komitələrindən bizə şikayət ediblər. Mən burda erməni təşkilatlarının rolunu aydınlaşdırmağa vəkil olunmuşam. Bax, məndə olan çoxlu sənəddən biri budur. Onu ucadan oxumağı xahiş edirəm. Mən burda bizim təşkilatlara aid olanların hamısını eşitmək istərdim. Mən qızğın surətdə inad edib deyirəm ki, nə qədər bütün bu «xumba»lar və «canfədailər» buraxılmayıb və tərk-silah edilməyib, bizim aramızda sülh olmayacaq».

Onun ardınca Hacıyevin təqdim etdiyi hansısa erməni inqilabi təşkilatının nizamnaməsi oxunur. Dərhal mübahisə düşür. Xatisov Hacıyevin verdiyi sənədin həqiqiliyinə şübhə etdiyini bildirir. Bu cür şübhə ilə təhqir olunmuş və bərk qəzəblənmiş Hacıyev o dərəçədə hiddətlənir və o qədər hövsələdən çıxaraq deyir ki, «əgər kimsə onun yalançı sənəd təqdim etdiyindən şübhələnirsə, özünü öldürər». Bundan başqa, deməyə söz tapmır.

«Daşnaksutyun»un fəaliyyətini müdafiə etməyin bu cür üsulu barəsində nə demək olar?

Yığıncaqda baş verən bir qədər pərtlikdən sonra ağırlığı çox güman ki, hamıya təsir edən belə bir anlaşılmazlığa görə A. İ. Xatisov, əlbəttə, hiss edirdi ki, hər halda Hacıyevin təqdim etdiyi sənədin saxtalığı haqqında öz səhvini yungülləşdirməli, yaxud da özünə bəraət qazandırmalıdır. Və yığıncağı yarana biləcək yeni və güclü münaqişələrdən yayındırmaq və həmçinin müxtəlif gizli təşkilatların əsl nizamnamələrini ona yaxşı tanış olduğunu göstərmək üçün özünün ən məşhur çıxışlarından birini söyləyir.

«Natiqin ətraflı düşünülmüş, məzmunca parlaq və həqiqiliyinə görə qızğın çıxışı - «»Tiflisskiy Listok»un müxbiri deyir - bəzilərinə çox güclü təsir elədi. Xatisov öz çıxışında erməni inqilabı təşkilatlarının günahlandırılmasında Hacıyevə və onun həmfikirlərinə cavab verdi. Türk rejiminin ağır və dözülməz zülmü altında inləyən ermənilərin insan hüquqları uğrunda mübarizə üçün Turkiyə Ermənistanında «Daşnaksutyun» partiyasının yaranma tarixindən başlayan natiq bunu yaradan səbəblərə toxunaraq «Daşnaksutyun » orqanlarının öz fəaliyyətini Zaqafqaziyada yaymalı olduğu bir zamanda müsəlmanlarla mübarizə üçün yox, burda knyaz Qolitsinin əleyhinə çıxış etdiyi ermənilərin həyatı və mədəni mənafelərinin qorunması üçün olduğunu qeyd etdi. Sonra Xatisov knyaz Qolitsinin məmləkəti idarə etdiyi dövrdə Qafqaz ermənilərinin vəziyyətini təsvir etdi və ermənilər barədə onun buraxdığı bir sıra yolverilməz ədalətsizlikləri göstərdi. Belə dözülməz vəziyyətə qarşı qəti etiraz kimi həmçinin Qafqazda «Daşnaksutyun» partiyası fəaliyyətə başladı. Erməni-tatar toqquşmalarının təşkil olunmasında bu partiyanın roluna gəldikdə isə bunu saysız-hesabsız bəyannamələr sübut edir».

«Tiflisskiy Listok» qəzetinin hesabatına görə, Xatisovun parlaq çıxışının mahiyyəti və məzmunu belədir. Mahiyyəti və məzmunu!

Məni yalnız bir müxbir hesabatının əsasında hansısa müsbət nəticələr çıxarmaqda məzəmmət edə bilərlər. Olmaz, çünki bu hesabatda çoxlu müxbir «uydurması» var. Mübahisə etməyəcəyəm. Lakin bu halda çıxışın mahiyyəti və məzmunu düz nəticə çıxarmağa imkan verir. Erməni nümayəndəsi təkcə «Daşnaksutyun»un fəaliyyətinə böyük rəğbətlə yanaşmır, həm də onun knyaz Qolitsinlə mübarizəsinə tamamilə haqq qazandırır.

### III

Və mən istər-istəməz «Daşnaksutyun»un və onun kimi təşkilatların İngiltərənin onların başının üstündən əksik olmayan hipnozunun təsiri altında Asiya Turkiyəsinin bir neçə vilayətində öz yoldaşlarının səylə qanlarını tökdükləri vaxta keçirəm. Söz yox ki, ingilis hipnozu, xüsusilə, o, təsirli köməklə müşayiət edilən hallarda, həqiqətən, məstedici təsir göstərir. Öz oçerkimi uzatmamaq üçün bunun üzərində dayanmayacağam. Ancaq onu deyə bilərəm ki, məhz, həmin vaxt (1895-1897), mən demək olar ki, .fasiləsiz olaraq Van, Bitlis, Ərzurum və qismən də Diyarbəkir və Mosul vilayətlərində olmuşam. Və həqiqətən də, nəsə tərifəgəlməz şeyləri müşayiət etmişəm. Ancaq o, burda hansı formada baş vermişdi? Gözlərim qabağında «Qan tökmək lazımdır və ermənilər bütün istədiklərinə nail ola biləcəklər» şüarı ilə böyük tragediya oynanılırdı. «Erməni dili mənə tanış deyil, lakin bu ifadəni mən tərcüməçimdən on dəfələrlə eşitmişəm və bu ifadə Asiya Türkiyəsinin ən uzaq guşələrində də eşidilirdi. Erməni qanının bu cür tökülməsi meydanında gizli erməni təşkilatlarının (mümkün qədər böyük iğtişaşlar salmaq ideyasına xidmət edən) öz erməni qardaşları barəsində nə qədər vəhşilik və zalımlıq etdiklərini sübut edə bilərəm. Ermənilər ümumiyyətlə, onlarda insani hisslərin mövcudluğuna açıqcasına şübhə ilə yanaşırdılar.

Xatisovun sözlərinə görə, «Daşnaksutyun» və onun kimi təşkilatlar Türkiyə Ermənistanında «ağır və dözülməz türk rejiminin zülmü altında inləyən ermənilərin insani hüquqları uğrunda mübarizə üçün» yaranmışlar.

Bax, artıq doğrudan da, demək olar: «Amansız həqiqət»in yolverilməz surətdə təhrif olunması» nədir? Həqiqətən də, əksinə idi. «Daşnaksutyun» və onun kimi təşkilatların xadimləri zühur edən yerdə və onların süni surətdə yaratdığı qanlı toqquşmalar olan yerlərdə (Bakı, Şuşa, Naxçıvan və s), məhz, ermənilər hər cür «fədai»dən məhrum olurdular. Asiya Türkiyəsi hüdudlarında ermənilər Zaqafqaziyadakı qardaşlarından heç də pis yaşamırdılar. 1895-ci ilin yayında Ərzurum və Van vilayətlərinin gəzərkən yolda hələ dağıdılmamış erməni kəndlərini görmüşdüm və Zaqafqaziyanın bəzi ermənilərinin həsəd apara biləcəkləri Türkiyə ermənilərinin maddi rifahı haqqında fikir söyləyə bilərəm. Əfsus! Bir ildək sonra həmin kəndlər, demək olar ki, tanınmaz olmuşdu... Nəyin sayəsində?.. Yalnız «Daşkaksutyun»un və Avropa ölkələrinin Türkiyənin işlərinə qarışması üçün bəhanə kimi kürdlərin ermənilərə qarşı hərəkatının süni surətdə yaradılması üzərində səylə çalışan ona bənzər təşkilatların fəaliyyəti sayəsində.

1877-1878-ci illərdə Türkiyə ilə bizim müharibəmizdən sonra 10-12 il ərzində burda hər şey qismən yaxşı idi və hələ erməni məsələsi mövcud deyildi. Ermənilər, türklər və kürdlər bir yerdə də, ayrı-ayrı qruplarla da yaşayırdılar və onlar arasında heç bir ciddi munaqişə də olmurdu. Düzdür, Türkiyə müdiriyyətinin idarəsi altında ölkə inkişaf etmirdi. Lakin «insan hüququnun olmaması»ndan xristian xalqlarından heç biri şikayət edə bilməzdi... Heç olmasa, yunanları misal göstərmək olar. Onlar iliklərinə qədər türklərə nifrət etsələr də, hətta 1897-ci ildə, sonra isə 1912-ci ildə Yunanıstanın Türkiyə ilə açıq toqquşmasına baxmayaraq, indiyə qədər tamamilə mehriban və yaxşı yaşayırlar.

Ermənilər də tamamilə eyni şəraitdə yaşayırdılar. Müsəlmanlar onlara heç bir düşmənçilik hissləri bəsləmirdilər. Türkiyənin bir çox rayonları, demək olar ki, onlardan tam iqtisadi asılılıqda idi, bütün ev qulluqçuları isə həmişə yalnız ermənilərdən ibarət olardı.

1890-cı illərin əvvəllərindən başlayaraq Türkiyənin ermənilər yaşayan müxtəlif vilayətlərində Londonda ən fantastik ideyalarla beyinləri doldurulmuş müxtəlif erməni təşviqatçıları peyda olmağa başladılar. Bunun necə olduğunu İstanbulda Fransanın diplomatik nümayəndəsi Kambonun məlumatlarından görmək olar.

Mən hələ Fransanın ingilis hipnozu altına düşməmişdən qabaqkı dövründə Yaxın Şərqdə bütün baş verən hadisələri diqqətlə izləyən bu təcrübəli diplomatın müşahidələrinə olduqca ciddi əhəmiyyət verirəm. Burda onun məlumatlarından çox misal gətirmirəm, yalnız mənim üçün azacıq lazım olan sətirləri qeyd edirəm. Onlar bunlardır:

«Londonda ermənilər en yaxşı bir üsul tapdılar. Qladstonun kabineti narazı adamları topladı, dəstələrə ayırdı, onları qayda-qanuna, intizama öyrətdi və onlara öz köməyini vəd etdi. Həmin vaxtdan Londonda təbliğat komitəsi təsdiq olundu və burda müvafiq göstərişlər aldı[3]. Erməni əhalisinin çoxunun başına iki olduqca sadə ideya yeridildi: millət və azadlıq ideyası. Beləliklə, bir neçə il ərzində gizli təşkilatlar Ermənistanın hər yerinə yayıldı.

Təbliğat işi yavaş-yavaş inkişaf etməyə başladı. Türkiyə müdiriyyətinin onu boğmağa gücü çatmadı. Axtarışlar. Həbslər heç bir nəticə vermədi: iğtişaşlar artdı və nəhayət, Sasunda (Tavra dağlarında, Muşun

[3] Öz şəxsi müşahidələrimdən buna onu əlavə edə bilərəm ki, 1895-1986-cı illərin iğtişaşları dövründə ingilis konsullarının Asiya Türkiyəsində ermənilər yaşayan bu və ya digər vilayətlərdə yalnız baş verən hadisələr haqqında yox, həm də hər şey haqqında çox böyük məlumatları vardı.

cənubunda) hamıya yaxşı məlum olan hadisələr başlandı. Yarısı kürd, yarısı ermənilər yaşayan bu vilayət Türkiyə müdiriyyətinin yalnız kağız üzərində mövcud olan belə rayonları sırasına daxil idİ, Burda kürdlər və ermənilər öz müstəqilliklərini qoruyub saxlayırdılar və 1983-cü ilə qədər onların arasındakı dostluğa xələl gətirən elə bir hadisə baş verməmişdi, Bu barədə Sasuk hadisələrinin öyrənilməsi üçün təyin olunmuş komissiya ilə Avropa nümayəndələrinin kollektiv raportunda sorğu-sual edilmiş Sasun ermənilərindən birinin çox ibrətamiz sözləri qeyd edilir. Sasun ermənisinin dediyinə görə, Damadiyan, sonra isə Boyadciyan (adı Murad idi) (1890) Sasuna gəlməmişdən əvvəl «burdakı ermənilər və kürdlər mehribancasına, can bir qəlbdə yaşayırdılar». Və yəqin ki, hələ on illərlə belə yaşaya da bilərdilər. Lakin bədbəxtlikdən, erməni gizli təşkilatları öz siyasi təşviqatlarını sınaqdan keçirmək üçün məhz, həmin rayonu seçmişdilər və bu da onlar üçük tamamilə uğurla başa çatdı. 1894-cü ilin avqustunda ermənilərin qəflətən əvvəlcə kürdlərlə, sonra isə ©onlara köməyə gəlmiş türk qoşunları ilə silahlı toqquşması olur. Bu süni surətdə yaradılmış qırğın sonra qeyri-adi şişirdildi və yeri gəlmişkən deyək ki, Türkiyənin işlərinə qarışmaq üçü» xarici ölkələrə bəhanə oldu. Bu, ermənilərin inqilabi fəaliyyətini xeyli artırdı və bir ildən sonra Asiya Türkiyəsinin altı vilayətinin əlahiddə vəziyyətdə dəyişilməsindən söhbət gedən vaxt erməni təşviqatçıları 1893-cü ilin sentyabrından başlayaraq Sasunda olduğu kimi onlarla hadisə törətdilər. Həmin vaxt «Daşnaksutyun»un (və onun kimi təşkilatların) fitnəkar fəaliyyəti türklərin və kürdlərin elə antierməni hərəkatına səbəb oldu ki, bəlkə də «canfədai»lər heç bunu gözləmirdilər. Onların gözləri qabağında minlərlə adam öldü, yüzlərlə kənd xaraba qaldı... Həqiqətən də, həmin vaxtlar harda və kimdən kömək və müdafiə ummağı bilməyən bədbəxt erməni əhalisinin iniltisi və göz yaşları hər yerdə eşidilirdi. Amma «Daşnaksutyun» və başqa təşkilatlar buna heç fikir də vermirdilər. Onları heç nə həyacanlandırmırdı. Hətta onları Avropa dövlətlərinin 1896-cı ilin əvvəlində erməni işlərinə qarışmaq üçün öz enerjilərinin miqdarını nəzərəçarpacaq dərəcədə azaltmağa başladıqları vəziyyət də narahat etmirdi. Görünür, həmin vaxt erməni hərəkatının məntiqi düşüncə qabiliyyətindən məhrum olan bütün başçıları hipnozun sərsəm təsiri altında idilər. Və burdan belə çıxır ki, onlar elədiklərini özləri də tam anlamırdılar. Və həm də məlum olur ki, bu ideyaların həyata keçirilməsi üçün yox, çox ehtimal ki, onları boğmaq üçün qəbul olunmuş əsas ideyalar və tədbirlər bir-birilə ziddiyyət təşkil edir. Ermənistanın bərpa olunması istəyini izləyərkən görürük ki, dövlətlərin arzu olunan (İngiltərənin vəd etdiyi) müdaxiləsinin ardınca təkcə Sasun hadisələrinin baş verməsi tamamilə kifayət idi. Lakin bu, həmin ideyaların əksinə getmək demək idi. Çünki belə ağılsız hərəkətləri geniş miqyasda, məhz, bərpa olunacaq Ermənistanın hüdudlarına daxil olmalı olan rayon və vilayətlərdə ermənilərin və onların maddi rifahının yalnız zəifləməsinə kömək edirdi. Bu cür özünüməhvin nə mənası var? Harda ki beyin hipnozun təsiri altında işləyir, bunun mənası yoxdur. Bax, çaşıb qalmış Taqionosova cavab budur: Ermənilər üçün xilasedici və faydalı (onun fikrincə) gizli təşkilatları nədəsə necə günahlandırmaq olar?

Ermənistanın bərpası ideyası, şübhəsiz ki, nəinki Türkiyənin, hətta Qafqazın erməni gənclərini başdan çıxara bildi. Lakin onun həyata keçirilməsi üçün hər şeydən əvvəl çox vaxt öz aralarında heç bir əlaqəsi olmayan ayrı-ayrı erməni partiyalarının və quldur dəstələrinin dağınıq hərəkatı yox, qismən möhkəm hazırlıq tələb olunurdu. Hətta onların arasında sadəcə həmrəylik, eyni proqram və s. yox idi. Əgər qiyam qaldırmaq qərara alınmışdısa, məlum plan üzrə hərəkət etmək lazım idi. Qiyam edən ermənilərin bütün mövcud qüvvələrini birləşdirmək üçün hansısa bir şəxsin, yaxud komitənin rəhbərliyi altında hərəkət etmək lazım idi. Doğrudan da, heç biri dediyim kimi olmadı. Bu və ya digər şəhərin, yaxud rayonun hüdudlarında olan, hətta iki təşkilat arasında heç vaxt lazımi həmrəylik olmamışdı. Quldur dəstələri heç bir sistem olmadan formalaşırdı. Bəzən bunun üçün iki-üç nəfərin birləşməsi kifayət edirdi. Onlar özlərini məşhur partiyalara mənsub hesab edirdilər, özlərinin xüsusi nizamnamələrini (belə nizamnamələrdən biri də ehtimal ki, Hacıyevin əlinə keçmişdi) yazır və nəşr etdirirdilər, başlarına quldur dəstələri toplayırdılar və sonra onlarla birlikdə öz hünərlərini göstərməyə yollanırdılar. Bax, başıbəlalı erməni məsələsi həmin adamların əllərinə düşmüşdü.

Əlbəttə, «Daşnaksutyun»un lazımi xarakteristikasını göstərmək üçün mənə elə gəlir ki, saxtalığına heç kimin şübhə edə bilməyəcəyi bəyannamələrdən bəzi yerləri nümunə gətirmək daha yaxşıdır, Bu parçalar «Daşnaksutyun»un və onun kimi təşkilatların, əslində, nədən ibarət olduğunu təsdiq edə bilər. 1896-cı ilin avqustunda İstanbulda Osmanlı bankına məşhur hücumdan əvvəl Avropa dövlətlərinin nümayəndələrinə ünvanlanmış həmin bəyannamədən bir parça misal gətirirəm;

«...Limanın ortaq dövlətləri!.. Həm Krit adasında, həm də Ermənistanda onlar xristianların mənasız və nəticəsiz mübarizəsinə bizim türk cəlladlarımız kimi nifrətlə yanaşırlar. Lakin əzilən millətin səbrinin də həddi-hüdudu var. Erməni millətinin qəzəbi ona bağlanmış zənciri yenə qıracaq. Onun sonrakı hərəkətləri Sultanın yox, həm də xarici dövlətlərin nümayəndələrinin üzərinə məsuliyyət qoyur!

...Biz öləcəyik! Biz bunu bilirik.[4] ...Lakin erməni millətinin iliyinə qədər işləmiş inqilab ruhu sonuncu erməni sağ qalana qədər Sultanın taxt-tacını hədələməkdən əl çəkməyəcək. Sonra imza: «Daşnaksutyun» erməni inqilabçıları federasiyasının mərkəzi İstanbul komitəsi».

Bu nədir?.. Yeniyetmələrin şirin söhbəti, yaxud yaşlı adamların sözləri?.. Bütün Avropa dövlətlərinə ultimatum! Bax, müdafiə budur!

---

[4] İş elə hazırlanmışdı ki, onun uğurlu nəticəsini kifayət qədər təmin olunmuş hesab etmək olardı.

Yuxarıda nümünə gətirdiymiz sətirlərin ümumi məzmunu, şubhəsiz onları təşkil edən adamların, hər şeydan əvvəl, hipnoz vəziyyətində hərəkətdə olan ruhi, qeyri-normal adamların Avropa dövlətlərini töhmətləndirən, bütün Avropaya qarşı silahlanan və nə qədər şücaət göstərsələr də, bundan heç nə uda bilməyən, bu sadə şeyi başa düşməyə qabiliyyətləri olmayan adamlar barədə xəbər verir. Əksinə, onların belə hərəkət tərzi erməniləri Avropanın köməyindən tamamilə məhrum edə bilər. Bu, doğrudan da belə oldu.

1896-cı il avqustun 14-də iyirmi beş erməni daşnaksakanın şücaətinin nəticəsi o oldu ki, yalnız Osmanlı bankı binası yanında birinci bomba partlayışından sonra İstanbul küçələri erməni əhalisinin ən amansız qırğın meydanına çevrildi. Onlar tərəfindən nəşr olunmuş bəyannamələrdən və Osmanlı bankının qəflətən zəbt edilməsindən başqa, heç bir nəticə olmadı. Günün axırına yaxın cəsur təşviqatçılar rus səfirliyinin tərcüməçisi Maksimov vasitəsilə Avropa ölkələrinin nümayəndələri ilə danışıqlar apardılar və sonra onları qorumaq şərtilə təslim oldular. Bir neçə gündən sonra isə onlar günahsız həlak olan öz erməni qardaşlarının minlərlə meyidini orda qoyaraq fransız gəmisi «Jironda»da artıq Marselə üzmüşdülər. Çox vaxt əlbəttə, elə belə də olurdu: Hansısa bir quldur dəstəsi döyüşü başlayır, sonra isə gizlənirdilər. Dinc əhali isə öz qanı və var-dövləti ilə itən qəhrəmanlarının şücaəti əvəzinə cəza çəkməliydi.

Bəyannamənin «inqilab ruhu erməni millətinin iliyinə qədər işləyib və s.» deyilən hissəsinə qayıdaq. Bu cür qeyri-təbiiliyə, səmimiyyətsizliyə, güman ki, nə vaxtsa mövcud olan inqilabi təşkilatlardan heç biri öz bəyannamələrində yol verməmişdilər. «Sonuncu erməni sağ qalana qədər Sultanın taxt-tacını hədələməkdən əl çəkməyəcək».

Necə də məst olmayasan! Qeyd etmək olar ki, ermənilər, ümumiyyyətlə, natiqlik etməyə hərisdirlər. Onların əksəriyyəti natiqliklə məntiqi unudana qədər maraqlanırlar, təki gözəl səslənsin. Cəfəngiyyat dərəcəsinə çatan gözəl sözlərin seçilib deyilməsi buna ən yaxşı sübut ola bilər. Bəyannamənin belə qorxulu sonluğu ilə tərtibçilər onu xüsusilə təsirli verməyi nəzərdə tutmuşdular. Lakin təəssüf ki, belə təsir «Daşnaksutyun»un anarxist fəaliyyətini müdafiə edən və kürdlərin qulu olmağa daha tez hazır olan erməni kənd əhalisi yox, üçüncü-dördüncü sinifdə oxuyan gimnaziya şakirdləri valeh olar. Bunu cəsarətlə və açıqcasına sübut edə bilərəm, çünki mən şəxsən özüm iğtişaşların ən qızğın dövründə Asiya Türkiyəsində (1895-1897) yaşamışam və «Daşnaksutyun»un amansız fəaliyyətinin izləri kimi həmin amansız həqiqətə inanmışam ki, erməni gizli təşkilatları, ilk növbədə, Türkiyə ermənilərinin ən qatı düşmənləridir.

Vacib hesab etdiyimə görə, «Daşnaksutyun»un erməni nümayəndələri tərəfindən hədsiz dərəcədə hörmət bəslənilən gizli erməni təşkilatlarının fəaliyyəti üzərində xüsusilə müfəssəl dayanmalıyam. Mənim misal gətirdiklərim əsasında bir də qeyd etməyi özümə rəva bilirəm ki, bu təşkilatlar Asiya Türkiyəsində öz qardaşlarının əsl cəlladları idilər və onların fəaliyyət göstərdikləri yerlərdə erməni əhalisi insan hüququndan məhrum olmuşdular.

Ümumiyyətlə, müxtəlif erməni təşkilatlarının üzvləri son dərəcə qeyri-normal insan surəti təsəvvürə gətirirlər. Onların hamısı dərindən inanırdı ki, fəaliyyətləri öz xalqının səadətinə, gələcək mənəvi inkişafının xeyrinə, maddi rifahına və s. həsr olunur. Bununla belə, heç biri başa düşmürdü ki, bu işə onlar nə qədər çox səy göstərsələr, istər Rusiyada, istərsə də Türkiyədə ermənilərin ümumi vəziyyəti daha da pisləşər.

A. İ. Xatisov «knyaz Qolitsinin məmləkəti idarə etdiyi dövrdə ermənilərin vəziyyətini təsvir etmişdi». Lakin onların o vaxtkı vəziyyətinə gəldikdə isə, nə üçün ermənilərin heç bir məhdudiyyət qoyulmadan bizim vətəndaşlıq hüquqlarımızdan istifadə etdikləri, ermənilər və ruslar arasında ümumdövlət nöqteyi-nəzərindən heç bir fərq olmadığı, dövlət xidmətində, hətta yerli ruslardan çox bəzən ermənilərə üstün şərait yarandığı, ermənilərin ləyaqətlə nazir vəzifələrini tutduqları və görkəmli hərbi xadimlər olduğu yaxın dövrü xatırlamayaq? Nə üçün Loris-Melikovun,, Ter-Quqasovun, Alxazovun, Lazarevin və başqalarının adları lazımdır? Ümumiyyətlə, ermənilərin bütün ziyalıları Tiflisdə ya rusca, ya da gürcücə danışdıqları vaxt onlar özlərini necə hiss edirdilər?.. Axı, bütün bunlar çoxdan yox, 20-25 il əvvəl olmuşdu.

Bəs ermənilərin ictimai vəziyyətinin bu cür dəyişməsinin səbəbləri nə idi? Knyaz Qolitsinin bütün fəaliyyətindən danışmaq cənab Xatisovun dediyi kimi, heç də lazım deyil. Ona görə ki, hələ knyaz Qafqaza gəlməmişdən qabaq ermənilər aranı qarışdırmışdılar... Biz on illər boyu ermənilərə birlikdə dinc və sakit yaşamışdıq, onlar bizim tam etimadımızı qazanmışdılar və tamhüquqlu vətəndaşlar idilər. Sonra isə birdən heç bir aydın səbəb olmadan «gəlin onları incidək!» dedik. Bu «cür inzibati sıçrayış, şübhəsiz ki, təbii, izaholunan, ağlagələn deyil. Əgər rus müdiriyyəti son 10-15 il ərzində ermənilərə qarşı öz fikrini dəyişibsə, şübhəsiz, yalnız ona görə ki, ermənilərin siyasi bədxahlığının olduqca nəzərəçarpacaq əlamətləri üzə çıxmağa başlamışdı, Onlar simalarını tamamilə dəyişmişdilər. Bu metamorfoza üzərində çox dayanmayacağam. Lakin rusların 1890-cı ilin əvvəllərində Londonda ingilis-erməni ittifaqının rəsmi yaranması haqqındakı məlumatdan çox təəccübləndiklərini qeyd edəcəyəm. Mən o vaxt bu hadisənin səbəbini heç cür izah edə bilməyənlərin sıralarındandım. İngilis-erməni ittifaqı?! Bu, nədir?.. Niyə?.. Nə üçün?.

Elə təxminən həmin vaxt yoxsulluq içərisində ölən, lakin tabutu təmtəraqlı və bahalı əklillər içərisində qərq olan erməni yazıçısı və publisisti Arsruninin dəfnində şəxsən iştirak etməli oldum. Bu əklillərin ümumi dəyəri necə deyərlər, Arsruninin qəpiyə güllə atdığı son günlərində onu təmin etmək üçün yəqin ki, bəs edərdi. Erməni təşkilatlarının fəaliyyətinin aydın məhsulu kimi bu əyani dəfn mərasimi qalmaqalsız keçmədi. Lakin

mən bunu təsvir etməyəcəyəm. Bu hadisə «erməni məsələsi» adlanmağa başlayan məsələ üzərində fikrimi bir qədər toplamağa ilk dəfə məni məcbur etdi.

Çox çəkmədən taleyim məni erməni təbliğatının lap mərkəzinə - Van şəhərinə (Asiya Türkiyəsi) atdı. Burda mən 1904-cü ilə qədər yaşadım və erməni qırğınının ən ağır dövrü - 1895-ci ilin payızı və bütün 1896-cı il gözlərim qarşısında canlandı. Sonra mən Vandan həmişəlik ayrılmalı olsam da, Asiya Türkiyəsi hüdudlarında qaldım, müxtəlif erməni təşviqatçılarının gələcək fəaliyyətini olduqca yaxından izləməyə imkanım artdı. İndi onların gizli təşkilatlarının çoxunun erməni milləti üçün nə qədər zərərli olduğu mənim üçün daha aydın oldu. Və mən doğrudan da, Türkiyənin yaxından bələd olduğum bədbəxt erməni kəndlilərinin acınacaqlı talelərini tez-tez xatırlayıram. Dinc və vicdanlı zəhmətkeş bir xalqın daha mövcud olmamasının şahidiyəm!.. Allaha edilən duaların şahidiyəm!.. Hər şeydən əvvəl, rəhmsiz və qəddar «Daşnaksutyun»un yürüşündən onları qorumaq üçün erməni kəndlilərinin qadir Allahdan etdikləri qəmli, kədərli xahişlərinin şahidiyəm!

Və budur, eşidəndə ki, belə təşkilatlar burdakı dözülməz vəziyyətə qarşı fəal etiraz kimi öz fəaliyyətlərini «təsadüfən» Qafqaz hüdudlarına keçirməlidirlər, onda erməni millətinin ən ziyalı nümayəndələrinin başlarında ağıl olduğuna yalnız təəccüblənirsən. Bilmirəm «təsadüfən» sözünün belə şəkildə qəribə ifada olunması kimə məxsusdur? Xatisova, yoxsa, onu mədh edən «Tiflisskiy listok»un müxbirinə? Amma hər iki halda bu sözün olduqca müstəqil mənası var.

Həmçinin, «knyaz Qolitsinin Qafqazda yaratdığı dözülməz vəziyyətə qarşı fəal etiraz kimi «Daşnaksutyun»un əmələ gəlməsi» ifadəsi də öz əhəmiyyət kəsb etmir...

Nümayəndələrin iclasında, həqiqətən də, «Daşnaksutyun» təşkilatının adının ən yüksək dərəcəyə çatdığı bir növ tarixi anlar da var idi. Bu adın gələcəkdə belə təntənə ilə səslənməsinə inanmıram. Onun üzvlərinin güman ki, heç vaxt yuxusuna da girməzdi ki, Qafqazın mərkəzində, Tiflisdə olan açıq iclasda onların anarxist fəaliyyəti nəinki ümumxalq qarşısında tam müdafiə olunacaq və bəyəniləcək, hətta Qafqaz müdiriyyətinin fəaliyyətindən də yüksək qiymətləndiriləcək. Xatisov dedi ki, Qafqaz müdiriyyəti gizli erməni təşkilatları qarşısında əllərini yuxarı qaldırmalı və məhz, belə təşkilatların fəaliyyəti sayəsində knyaz Qolitsin məğlub olmalıdır.

Daşnakların və ümumiyyətlə, müxtəlif gizli təşkilatların rus hakimiyyəti ilə necə uğurla mübarizə apardıqları ibrətamiz nümunədir. Fitnəkar erməni-tatar qırğınının qarşısının alınması üçün vasitələr axtarıb tapmaq vəzifəsi tapşırılan adamlar yığıncaqda bax, ancaq bu barədə danışmış və fikir söyləmişlər. Burda söhbət hər şeydən, özlərinə lazım olan şeylərdən getdi, ancaq qanlı qırğının dayanması üçün ən vacib tədbirlər barədə bir söz də deyilmədi. Bütün bədbəxtliklərin səbəblərini təkcə rus hökumətinin böyük nümayəndələrinin üstünə yıxdılar. Polislər fitnəkardırlar, məmurlar etibarsız və fəaliyyətsizdirlər, məhkəmələr heç nəyə yaramırlar, prokurorluq orqanları öz vəzifələrinə layiq deyillər, inzibati müvəkkilər əhalinin müxtəlif təbəqələrinə eyni münasibət bəsləmirlər, strajniklər sistemi (zemstvo polisi) öz vəzifələrini yerinə yetirmirlər və s. Ancaq tatarlar və ermənilər arasında qismən də olsa, etibarlı sülh bağlamaq haqqında isə söhbət getmirdi.

Fərz eləyək ki, bütün bunlar, həqiqətən də, tamamilə onların ciddi müzakirəsinə həsr olunmuşdu. Lakin yanğının üstünə tezalışan material tökmək yox, onu tez söndürmək tələb olunan bir vaxtda, rus hakimiyyəti onun üzərinə Qafqazın başqa xalqlarını salışdırmaq yox, kömək tələb edən bir vaxtda onların müzakirəsi ilə məşğul olmaq lazım idimi? Bundan başqa, bütün bu məsələlər yalnız Qafqazın bu iki xalqının nümayəndələrinin iştirak etdiyi erməni-tatar yığıncağında heç də münaqişə mövzusu ola bilməzdi.

Beləliklə, heç bir şişirtmə olmadan demək olar ki, bu iclaslar, əsasən, «Daşnaksutyun» və onun kimi təşkilatları həvəsləndirmək üçün Qafqaz müdiriyyətinin açıq tənqidinə həsr olunmuşdu.

Və əgər buna bu tənqidin dövlət nümayəndəsinin gözləri qarşısında olduğunu da əlavə etsək, onda rus hakimiyyəti nümayəndələrinin necə nüfuzdan düşməsini təsəvvür etmək olar. Ermənilər rus hökumətini nüfuzdan salmaq istəyinə nail ola biliblərsə, nə qazanıblar? Bunu hansı niyyətlə və hansı ağılsızlıqla edirlər? Təsəvvür edək ki, «Daşnaksutyun» və başqa inqilabi təşkilatlar üçün arzuedilən saat gəlib çatıb: Qafqazda rus hakimiyyəti yoxdur!... Bu hakimiyyət Qafqaz dağlarının şimal tərəfinə keçib gedib! Bunun ardınca nə baş verəcək? Makedoniyadakı müasir anarxiya, əlbəttə təhqir edilmiş rus hakimiyyəti olmadığı üçün burda baş verə biləcək ümumi qırğının yalnız kölgəsi olacaq.

## V

Artıq «Daşnaksutyun»un və onun kimi təşkilatların fəaliyyəti haqqında fikrimi kifayət qədər aydın surətdə dedim. Yuxarıda dediklərimin hamısı mənə elə gəlir ki, onların ilk dəfə fəaliyyət göstərdikləri və fəaliyyətlərinin, əsasən, anarxiyanın süni surətdə yaradılması üzərində cəmləşdiyi Asiya Türkiyəsində ən anarxist dövrlərin onların adı ilə bağlanmasını sübut edir. İndi Qafqazda erməni-tatar qırğınının əsas səbəblərini aydınlaşdırarkən belə günahkarların hər halda təsadüfən öz fəaliyyətlərini həm də Qafqaz hududlarına keçirən gizli təşkilatlar olduğu fikrini mən qətiyyətlə saxlamağa çalışıram. Bura gələrkən onlar dəyişməmişdilər və elə əvvəlki kimi də qalmışdılar, lakin onların müsəlmanlara qarşı pas atmış nifrəti burda bütün Şərqi Zaqafqaziyaya keçən həmin qanlı toqquşmalarla bir sırada idi. Tatar nümayəndələri də elə bu fikirdə idilər. Onlar tərəfdən

Qafqaz hökumət orqanlarının ünvanına heç bir məzəmmətedici söz eşidilmir. Anarxiyanın tətbiq edilməsini onlar yalnız «Daşnaksutyun»un ayağına yazırlar.

Ermənilər isə bütün günahı Qafqaz müdiriyyətinin üstünə atırlar. Xatisovun çıxışları, şübhəsiz, hər şeydən əvvəl, «Qafqaz hökumət orqanlarının cinayətkarcasına fəaliyyətsizliyindəki dərin və qəti inamımı sübut edir. Həmin məsələyə qayıdıram. Qafqaz hökumət orqanlarını müdafiə eləmək, yaxud pisləmək niyyətində deyiləm, çünki nə onların tədbirləri, nə də fəaliyyətləri mənə yaxşı tanış deyil. Lakin özümü, hətta erməni nümayəndələri ilə bir sıraya qoysam da, hərhalda heç də onların fikri ilə razı olmayan nəticələrə gəlirəm. Tutaq ki, Xatisovun ittihamları ədalətlidir. Onlarda heç bir dözülməz şey yoxdur. Həqiqətən də, acı təcrübədə bizim inzibati idarələrlə tanış olan hər bir kəs yaxşı təəssüratı olması ilə öyünə bilməz. Bu cəhətdən biz, əlbəttə, hər hansı bir idealdan çox uzağıq və məhz, bizim inzibati maşınımızda olduğu kimi, heç bir yerdə islahedilmə heç də arzu edilən şey deyil. Bir vilayətdə müdiriyyətin adamlarının tam fəaliyyətsizliyi və süstlüyü dərhal hakimiyyətin həddini aşması ilə, yaxud həddən artıq inkişaf etmiş təşəbbüslə əvəz olunan hallar bizə azmı məlumdur? İnzibati müdirlərin məlum hissəsinin işinə təmiz subyektiv münasibəti də, həmçinin inkar etmək olmaz. Bütün bunlar üçün heç bir mübahisə lazım deyil. Ola bilər ki, bir çox erməni-tatar toqquşmalarında bizim polis işçiləri və bütün rütbəli məmurlarımız tamamilə ciddi məzəmmətə layiqdirlər. Lakin kim xatırlayırsa, həmin dövrdə (1904-1905) rus hakimiyyətinin zəifləməsi, bəzən də tamamilə olmaması hər yerdə hiss olunurdu. Nə qədər rus quberniyası və vilayəti həmin vaxt ən aşağı elementlərin hökmranlığından və ümumiyyətlə, birdən hansısa səbəblərə görə, mühüm qüvvə olan cəmiyyətin tullantılarından əzab-əziyyət çəkmişdi. Bu, müxtəlif gizli təşkilatların anarxist fəaliyyəti üçün geniş meydan açıldığı dövr idi, Bizim Şərqi Zaqafqaziyanın başına gələn bədbəxtliklər istər «hakimiyyətin cinayətkarcasına süstlüyündən, istərsə də qırğının əsas xadimlərinin - «Daşnaksutyun»un cinayətkarcasına fəaliyyətindən» irəli gələ bilərdi. Bu iki səbəbdən bəs hansı üstün idi? Şübhəsiz ki, ikincisi. Xatisovun özü yuxarıda göstərilən dövrdə «Daşnaksutyun»un gücünü sübut edir. O deyir ki, bu partiya knyaz Qolitsinin rejiminə qarşı mübarizə üçün yaradılmışdı. Qolitsin gedəndə və bizə hər cür azadlıq (hər bir dinc sakini boğan azadlıq) bəxş ediləndə hakimiyyət müvəqqəti olaraq yox oldu, «Daşnaksutyun» hər şeyə qadir həqiqi qüvvəyə çevrildi. Onsuz da tatarlar və ermənilər arasında antipatiya dünən başlamayıb. Ən əsassız bəhanə olanda belə və möhkəm hakimiyyət olmayan vaxt hər bir dəqiqə iki tərəfdən də açıq toqquşma baş verə bilərdi. Ancaq qayda-qanun yaratmaq üçün ciddi tədbirlər görülməyəndə belə toqquşmalar geniş miqyas ala bilərdi. Hərçənd ki, Xatisov həm də «bu partiyanın saysız-hesabsız bəyannamələri qarşısına ancaq özünümüdafiə vəzifəsini qoyur» deyirsə, mən isə aşağıdakıları demək istəyirəm: Bu partiyanın fəaliyyəti ilə çox yaxından tanış olmağıma baxmayaraq, «onun saysız-hesabsız» müdafiə bəyannamələrindən heç olmasa, birinə rast gəlmək xoşbəxtliyi mənə nəsib olmadı. Bununla belə, «Daşnaksutyun»un İstanbulda Avropa dövlətlərinin nümayəndələrinə mənim yuxarıda nümunə gətirdiyim elə həmin bəyannaməsi tamamilə başqa şey deyir.

Ümumiyyətlə, sülhsevər tendensiyalar «Daşnaksutyun»a xas deyil. Hər hansı bir işdə onun mövcud olmamasını aşkar etmək olan bütün hallarda isə o, həmişə müdafiədə yox, hücumda olub.

Etiraz edə bilərlər ki, erməni-tatar münaqişəsinin yaranmasında, əgər mən bunu faktiki olaraq sübut edə bilmirəmsə, təşəbbüsü «Daşnaksutyun» təşkilatının ayağına yazmaqda haqlı deyiləm. Olduqca ağır məzəmmətdir!.. Bu məzəmmətin nə qədər əsaslı olduğunu başa düşürəm. Lakin əgər bu cəhətdən əlimdə mövcud faktlar olsaydı, olduqca bu uzun oçerki yazmaq da lazım gəlməzdi. Əgər məndə elə faktlar olsaydı, onlar həmçinin bəzi adamlarda da olardı. Və onda erməni-tatar qırğınının yaranmasında «Daşnaksutyun»un günahlarını təsdiq etmək üçün heç bir sübut tələb olunmazdı. Erməni məsələlərinin gedişatını izləyərkən burda qətiyyən heç kəs üçün vacib olmayan onların öz şəxsi fikir və inamları haqqında danışıram. Mən haqlıyammı, yoxsa haqsız. Hər kəs bildiyi kimi fikir söyləyə bilər. Çox ola bilər ki, mən hətta amansızcasına səhv edirəm və onların nümayəndələrini məzəmmət etməkdən çox ermənilər tərəfdən ədalətli məzəmmətə layiqəm.

Axırda demək istəyirəm ki, əgər ermənilərin və tatarların qanlı toqquşmalar yaradan səbəblərin diaqnozu məsələsində «Daşnaksutyun»un da günahını boynuna almağa onların kişiliyi çatardısa, erməni nümayəndələri ilə bir az razılaşmaq mümkün olar və çoxlu ümumi baxışımız onlarla düz gələ bilərdi. Onun fəaliyyətini pisləyərkən Qafqaz hökumət orqanlarını da bunun üçün, əlbəttə, daha nəzakətli sözlərdən istifadə etməklə pisləmək olardı. Bununla barışmaq asanlıqla mümkün ola bilərdi. Lakin «Daşnaksutyun»a bəraət qazandırmaq üçün hər şeyi yalnız müdiriyyətin üstünə atmaq yalnız «Daşnaksutyun»un fəaliyyətini qızışdırmaq və tamamilə nahaq yerdən Qafqazda rus hökumətinin mövqeyini alçaltmaq demək idi... Deməli, heç bir tənqid işə kömək etməzdi. Bundan başqa, erməni-tatar qırğını dövründə bu hakimiyyət təkcə təhqir yox, həm də kömək tələb edirdi. Tatarlar da ehtimal ki, onların üstünə az günah yıxmırdılar. Lakin onlar yaxşı başa düşürdülər ki, heç olmasa, hətta bu günahkar hakimiyyət olmadan Qafqaz diyarını ən ağır aqibət gözləyir. Və qeyd etməmək olmaz ki, bütün iclaslarda tatar nümayəndələri həmişə hakimiyyətin yıxılması tərəfində yox, onun müdafiəsində oldular.

Bax, ona görə də mən istər-istəməz Zaqafqaziya musəlmanlarına rəğbət bəsləyirəm.

## VI

Sonrakı iclaslarda da tatar nümayəndələri əvvəlki fikirlərinin üstündə möhkəm durur və deyirdilər: «Ötən illərdə «Daşnaksutyun»un fəaliyyəti səmərəli olub, lakin son vaxtlar bu partiya sanki öz yolundan azıb. Knyaz Qolitsinin gedişi ilə Zaqafqaziqada «Daşnaksutyun»a bir iş qalmayıb!»

«Daşnaksutyun»un buraxılmasının vacibliyi haqqında bu cür bəyanat olduqca xarakterikdir. Tatarlar bu təşkilatı Qafqazda erməni-tatar qırğınında ən əsas amil kimi göstərməkdən əl çəkmirdilər. Açıq aydındır ki, «Daşnaksutyun»un buraxılması bir qədər ciddidir və bu haqda danışmaq olmazdı, çünki bu təşkilat gizli təşkilatların sırasına daxildir. Onun üzvləri görünməzdir, ələkeçməzdir və nəinki hər hansı bir nüfuzun təsirinə qapılırlar, hətta özləri bəlkə də, erməni millətinin ən yaxşı nümayəndələrini hipnoz vəziyyətində saxlayırlar. Bu barədə daha müfəssəl söhbətimiz sonradır.

İndi isə «Daşnaksutyun» təşkilatına aid münaqişələrlə sözümü qurtarmaq üçün Taqionosovun bəyanatlarından bir parça da misal çəkəcəyəm.

«Daşnaksutyun»u biz yaratmamışıq və bu təşkilatı biz məhv edə bilmərik. O və onun kimi təşkilatları həyat şəraiti yaradıb və bu şərait olmayanda da «Daşnaksutyun» təşkilatı öz-özünə yox olacaq. Biz indi ağır həyat şəraiti ilə mübarizəyə yönəldilmiş qüvvələri dinc mədəni işə qoşa bilsək, müsəlmanlardan az sevinmərik».

Başqa cür desək, Taqionosov hamını «Daşnaksutyun»un mövcudluğu ilə barışmağa çağırdı, çünki bu təşkilat hələlik lazımdır. Etiraz edən olmadı, aydın oldu ki, belə məharətlə və ustalıqla müdafiə olunan erməniləri mövqedən vurub çıxarmağa tatarların gücləri çatmır. Bu cür şərait erməni nümayəndələrindən birini «ən mühüm məsələlərdən birini sakit bir surətdə və nəzakətlə müzakirə edən iclasın ümumi əhval-ruhiyyəsi» barədə özünün tamam zövq aldığını deməyə məcbur etdi. Yığıncağın qızğın yerində tatar Şahmalıyevin qəflətən durub, demək olar ki, uşaq sadəlövlüyü ilə yenidən «Daşnaksutyun»un buraxılmasını tələb etməsi artıq onların tam gücsüzlüyünü göstərirdi.

«Türkiyə ermənilərinin azad olunmasından söhbət gedəndə müsəlmanlar ermənilərə mane olmurdular!.. (özümdən əlavə edirəm - daha yaxşı azad olunma - minlərlə adamın əbəs yerdən məhvi və minə qədər ailənin heç nədən dilənçi halına düşməsi!:.) Lakin indi «Daşnaksutyun»un fəaliyyəti bizim məmləkətin hududlarına keçib. Bu, belə olmamalıdır!.. «Daşnaksutyun» lazımsız və zərərli quldur dəstəsi kimi buraxılmalıdır».

Bunun ardınca Şahmalıyevi sanki müdafiə etməyə çalışan Yadigarov ayağa qalxır. O, ermənilərin həmişə birinci hücum etdiyindən şikayətlənir və yaxınlarda Tiflisdə bir müsəlmanın doğram-doğram edildiyini söyləyir. Burda tatar nümayəndələrinin özləri onun sözlərini kəsir və ardını danışmağa imkan vermirlər. Bu kiçik çaxnaşmadan istifadə edən Xatisov yenə çıxış edir:

«Qızğın və həyəcanlı çıxışında o, erməniləri və tatarları bir-birlərinə əl uzatmağa, ümumi rifahın və ümumxalq ideallarının və arzularının çiçəklənməsi naminə birlikdə işləməyə çağırır. Lakin sülh yalnız iki şərtlə ola bilər; 1) Qarşılıqlı etimad. 2) Ermənilərlə müsəlmanların yaxınlaşması və bir-birini başa düşməyə mane olmaması şərtilə».

Burda «Tiflisskiy Listok»da resenziya yazan adam güman ki, «ağ eləyib». Mən onun «ümumxalq ideallarının və arzuları»nın həyata keçirilməsi haqqındakı ifadəsinə bir qədər istehza ilə yanaşıram. Yəqin ki, o, öz bəlağətinə vurulub, ona görə ki, «ümumxalq idealları və arzuları» nə deməkdir? Həqiqətən də, hər hansı bir ümumxalq idealı və ümumiyyətlə, arzusu varmı?..

Tatar nümayəndələri üçün, güman etdiyim kimi, həm də bir çox oxucular üçün orda hansısa bir arzu haqqında təsəvvür olduqca dumanlı olmalı idi. Ermənilərin və tatarların yaxınlaşmasına və bir-birini başa düşməsinə bəs kim mane ola bilər?.. Bir xalqı başqasının üstünə qaldırmağa çalışan Qafqaz müdiriyyəti?..

Etiraz edən olmadı. Bu iclasdan müxbir, görünür, çox razı qaldı. Onun dəlilinə görə, Xatisovun sonuncu çıxışı «hamıya güclü təsir bağışladı! Fasilə elan olundu. Ümumi əhval-ruhiyyə yaxşı idi. Bəziləri tanışlığa yenidən başladılar və s».

## VII

Artıq demişəm ki, bütün iclaslar ərzində tatar nümayəndələri tərəfindən Qafqaz müdiriyyətinin ünvanına heç bir məzəmmətedici söz deyilmədi. Əksinə, adama elə gəlirdi ki, onlar daha çətin məsələlərin həlli üçün müdiriyyətin köməyinə gəlməyə həmişə hazırdırlar. Bu, xüsusilə, zərərin ödənilməsi haqqında məsələ müzakirə edilərkən əyani surətdə aşkar olundu. Bu mövzuya aid birinci K. İ. Xatisov (mühəndis) danışır. O deyir ki, ermənilər iclasa «qılıncla yox, sülh ağacıyla» gəliblər, onlar burda yalnız bir həqiqəti deyirlər və çıxışını «istər müsəlmanlar, istərsə də ermənilər - hərə öz payını almalıdır» (?!) fikri ilə qurtarır.

Sonra Arutyunov bütün növ zərərin ödənilməsi haqqında məsələ qaldırır.

S. Arakelyan sübut edir ki, yalnız «belə şərtlə» o, əmin ola bilər ki, bu cür qarətlər olmayacaq.

Sonra müsəlmanlar danışır. A. B. Xasməmmədov bildirir ki, «müsəlmanlar da zərərin ödənilməsi haqqındakı məsələ ilə razıdırlar...»

Biz yalnız onların həyata keçirilmə üsulu ilə razılaşmırıq... Bəzi məsələlərə görə, qarət zamanı günahkarlar aşkar edilib və məsuliyyətə cəlb olunub. Və madam ki, cinayət işi qaldırılıb, onda zərərin ödənilməsi inzibati qayda ilə mümkün deyil».

Ağayev qırğının səbəbi haqqında proqramın birinci maddəsinin müzakirəsində inadla deyir; «Cəza verilməsi lazım olan günahkarlar da o vaxt üzə çıxacaq».

Qarabəyov da deyir ki, günahkarlar müəyyən olunmadan zərərin ödənilməsi haqqında məsələ də ola bilməz. «Biz hökumətə ümid bağlamalıyıq. Gələcəkdə biz hamımız hökumətə ümidlə yanaşacaq və ona kömək edəcəyik».

Bütün bu bəyanatlardan sonra yığıncağın əhval-ruhiyyəsi elə hala çatmışdı ki, general Malame (sədr) «bu məsələ həll olunmamış qalır və ona görə də onu canişin qərar verənə qədər saxlayaq?» - deməyə imkan tapdı.

Lakin bu an A. İ. Xatisov ayağa qalxır və tamamilə gözlənilməz halda deyir ki, əgər zərər ödənilməsə qırğın yenidən başlanacaq. Bizim nümayəndələrin hər gün aldığı saysız-hesabsız məktub və teleqramlara görə erməni əhalisinin əhval-ruhiyyəsini bilirik və qəti surətdə ərz edirəm ki, əgər zərər ödənilməsə, öz vəzifəmizi yerinə yetirmək iqtidarında olmayacağıq... Bildiririk ki, sülh məsələsi üçün zərərin tam ödənilməsi lazımdır. Bu məsələni biz ön plana çəkirik. Öz arzunu bütün aydınlığı ilə sübut etmək, Qafqaz müdiriyyətini çıxılmaz vəziyyətdə qoymaq olarmı?!. Hardan istəyirsən al, lakin zərəri (erməni fırıldağından əmələ gələn) ödə.

Və budur, bu məsələ üzrə yenidən qızğın mübahisələr başlanır.

Qarabəyov sübut edir ki, günahkarlar aşkara çıxarılmadan hamıdan bu cür alınan cərimənin mənası yoxdur.

Ağayev birinci maddəyə qayıtmağı - günahkarların kim olmasını bilməyi xahiş edir... «Madam ki, siz (ermənilər) yeddinci maddəyə bu cür xarakter verirsiniz, onda belə münasibətlərin hardan yarandığını bilmək lazımdır. Sizin (ermənilərin) ələkeçməz təşkilatlarınız var. Onlar bizə hücum edirlər, biz müdafiə olunuruq. Bizi hamı tanıyır və bizi zərəri verməyə məcbur edə bilərlər. Mən belə ədalətsizliyə qarşı etiraz edirəm».

Sonra zərəri müəyyənləşdirmək üçün komissiyaların nəzərdə tutulan təşkili barədə Topçubaşov danışır. O, olduqca inandırıcı surətdə sübut edir ki, ermənilər bu maddəni kifayət qədər ölçüb-biçmirlər. «Komissiyalar yalnız yerindəcə narazılıq ocaqları yaradacaqlar. Mən onların praktik əhəmiyyətini təsəvvür edə bilmirəm. Zərəri kim müəyyənləşdirəcək?.. Şahidlər kimlər olacaq? Burda biz mülkiyyətə ayrı-ayrı qəsdlər yox, kütləvi hücum gözləyirik».

Ziyadxanov (tatar) hesab edir ki, «...əgər müsəlmanlarda sülh işinə mane olan amillər varsa, qoy onları göstərsinlər. Bizə deyirlər ki, zərərin ödənilməməsi yeni toqquşmalara gətirib çıxarar... Lakin məgər, zərərin ödənilməsindən asılı olaraq sülh haqqında məsələni belə qəti şəkildə qoymaq olar?..»

Xatisov (mühəndis): «Fiziki cinayətkar şəxslər var, zərər onlardan alınmalıdır».

Ağayev (tatar): «Rəsmi ifadələr və şəxslər tərəfindən sübut olunmuşdur ki, biz quldurlardan və qatillərdən müdafiə olunuruq. Avqustda müsəlmanları evlərdən, damlardan vurub öldürdükləri vaxt da Bakıda belə idi... Bir tərəfdən hücum edən mütəşəkkil ordu, digər tərəfdən qeyri-mütəşəkkil xalq kütləsi var... Qoy bizi erməni təşkilatlarından qorusunlar və onda biz zərərin ödənilməsi barədə danışarıq! Mən özüm bəy və ağayam. Deyirəm ki, əgər mənə hücum etsələr, evləri yandıracağam! Biz «Daşnaksutyun» və bütün erməni təşkilatlarının buraxılmasını tələb edirik!!! Terror bizim cəmiyyətə pozğunluq gətirmişdir. Zati-aliləri, (general Malameyə müraciət edərək) xahiş edirəm ki, ya bizə ordu təşkil etməyə ya da erməni təşkilatlarını ləğv etməyə icazə verəsiniz!»

Sonra bir neçə nəfər və onların ardınca A. İ. Xatisov danışır: «...Cənab müsəlmanlar ermənilər haqqında hücum edən tərəf kimi danışırlar. Əgər dünyada azacıq da olsa ədalət varsa, onda qırx beş erməninin və bir müsəlmanın öldürüldüyü Naxçıvanda ermənilərin hücum edən tərəf olmadığını hamı deyər. Müsəlman nümayəndələrinin özlərini hər kəsi incidə bilən balaca uşaq, yaxud Kazan yetimi yerinə qoymaqları gülüncdür!...»

Əlbəttə, heç kəs Naxçıvanda ermənilərin qırx beş, müsəlmanların isə bir adam itirdikləri barədə (hətta əgər dünyada heç bir ədalət yoxdursa da) mübahisə də etməz. Lakin bunu xüsusi olaraq sübut etməyə nə hacət var? Naxçıvan hadisələri Bakı, Şuşa və s. Hadisələrdən çox-çox sonra baş vermişdi. Bu, tatarların da hücum etdiklərini (bəli, heç kəs buna etiraz etmir) sübut etmək üçün tipik olmayan hadisədir və buna ən yaxşı nümunə çox vaxt heç nədə günahı olmayan erməni kənd əhalisinin əzab-əziyyət çəkməsidir («Daşnaksutyun»un özünümüdafiə zəminində göstərdiyi parlaq şücaətə görə). Naxçıvan hadisələrini heç bir şey sübut edə bilməz. Sonra bütün bu mübahisələrdən belə müsbət nəticələr çıxarmaq olar. Şübhəsiz ki, tatarlar ermənilərin hesabına daha çox qazandılar. Lakin məsələnin mahiyyəti, əlbəttə, bunda deyil, zərərin ödənilməsi haqqındakı məsələnin inzibati qayda ilə mümkün olmadığında və yolverilməzliyindədir. Qarətçilər və qarət edilmişlər göz qabağındadırsa, onda inzibati və məhkəmə orqanları, əlbəttə, zərərin tam ödənilməsi üçün hazır olmalıdır. Lakin bu, Qafqaz müdiriyyətini iki od arasında qoymaq demək idi. Erməni deputatlarının çıxışları Qafqaz müdiriyyətinin vəziyyətini daha da ağırlaşdıra bilən rus hakimiyyəti üçün belə çoxlu məsələlər yaratmaq onların

ən güclü arzularını ifadə edirdi. Onların «zərəri qaytarmasanız, yenə də qırğın olacaq» ultimatumunun[5] ümumi əmin-amanlığa heç bir xeyri yox idi.

## VIII

Axırda erməni məsələsində erməni mətbuatının oynadığı roldan bir neçə kəlmə demək istəyirəm. Mətbuatın alçaqcasına səyi sayəsində erməni xalqı heç vaxt öz təşviqatçılarının törətdiklərini düzgün başa düşmür. Məhz, mətbuatın sayəsində erməni məsələsindəki həqiqət, həqiqət işığına yol açıb keçmək mümkün olmayan sıx yalan təbəqəsi ilə örtülmüşdü. Bu halda mətbuatın çox vaxt fikrin ifadəçisi olmayan, əksinə bu fikri zalimanə surətdə yaradan həqiqətin sübut olunması son dərəcə yaxşıdır, Bu, məhz, məlum ideyaların təbliğat şəklində həmin mətbuatda zidd olan heç nəyə yol verilmədiyi bir vaxtda baş verir. İdeyalar müstəqil olaraq hansı ifratçılıqla fərqlənir-fərqlənsin, cəmiyyət üçün təhlükəli deyil. İdeyalarla razılaşmağa, onları qəbul etməyə, yaxud qəbul etməməyə hər bir kəs azaddır. Ən zidd fikirlərin mətbuatda toqquşması heç kəsi heç nəylə qorxuda bilməz. Lakin əgər məlum ideyaları sübut etmək üçün doğrudan da, həqiqətlə heç bir ümumi əlaqəsi olmayan tamamilə çoxlu təşkil edilmiş və inandırıcı faktları yalanla misal gətirməyə başlayırlarsa, onda cəmiyyət istər-istəməz artıq nəinki ideyalarla, həm də saxta faktlarla hesablaşmalı olur. Onların mövcudluğunu fərz edərkən öz əhval-ruhiyyəsi nəinki ayrı-ayrı adamlara, hətta bütün cəmiyyətə, bütün xalqa olan əhval-ruhiyyəni dəyişmək lazım gəlir! Və əgər yalnız mətbuat onun yayılmasına[6] fəal surətdə qoşularsa, əksər adamların inanmadığı ən həyasız yalan da yoxdur. Erməni xalqı məhz belə bir vəziyyətin, yəni, həmişə təhrif olunmuş, yaxud şişirdilmiş faktlara əsaslanan səhvlərinin bütün ağırlığının altını çəkməli olur.

Əgər erməni məsələsinə görə son 10-15 ildə dərc olunmuş materialların hamısını yığmaq kiməsə müyəssər olsa, onda toplanmış materialları «Tiflisskiy Listok»un müxbirinin qısaca və dürüst ifadə etdiyi həmin ifadələrdə xülasə etmək asan olardı. Heç olmasa, Xatisovun çıxışı, yəni, ermənilərin ağır və dözülməz türk rejiminin zülmü altında əzildiyini rus hakimiyyətinin biabırçı ədalətsizliyi sayəsində ermənilərin Qafqazda inlədiyini və ona görə ermənilərin heç olmasa hökumətlə açıq mübarizədə özlərinə insan hüququ qazanmaq üçün öz həyati və mədəni mənafelərini müdafiə etməyə məcbur olduqlarını təsdiq edən məlumat və faktlar mətbuatda toplanılmış və quraşdırılmışdır.

Erməni mətbuatının müxtəlif senzuralı və senzurasız orqanlarında müxtəlif müəlliflərin yazdıqları mövzuların mahiyyəti budur. Bu mətbuatda bu cür proqramın ziddinə gedən nəyisə görmək, demək olar ki, mümkün deyil. Bəs nə üçün bu, baş verir? Ona görə ki, ermənilər, həqiqətən də, «Rusiya və Türkiyə müdiriyyətinin zülmü altında inləyir və əzab-əziyyət çəkirlər?..» Ona görə ki, onlar insan hüquqlarından məhrumdurlar?!. Qətiyyən belə deyil. Bu mövzuda yalnız təkcə erməni təbliğatçıları və erməni məsələsinin çağırılmamış himayədarları yazır və danışırlar. Əgər mətbuatda onlar lazımi kəskin cavab almırlarsa, onda bu, hələ onların doğruluğunu sübut edə bilməz. Bunu yalnız mətbuatda zidd fikirlərin olmaması sübut edir. Vəssalam! Əlbəttə, bəs nəyə təəssüflənmək lazımdır. Məhz, nə üçün bu yoxdur? Bu sualın izahına mən sonra bir neçə sətir ayıracağam. Burdaca hər şeydən əvvəl, qeyd edim ki, mən 1894-1897-ci illər ərzində Asiya Türkiyəsində baş verən təşviqat və təsvir işində erməni mətbuatının, ümumiyyətlə, nə qədər yalançı olduğunu ətraflı müzakirə etmək vəzifəsini qarşıma məqsəd qoymuram. Mən burda yalnız öz fikrimi demək istəyirəm, həm də erməni məsələsinə görə başlıca olaraq yalanın yayılması və bütün erməni millətini yalan yola çıxaran, ağılları, bəlkə də, onun ən yaxşı nümayəndələrinin ağıllarını çaşdıran, yüzlərlə ermənini yolundan azdıran, minlərlə adamı faydalı işdən ayıran və onları anarxiyanın yaranmasını - Asiya Türkiyəsində erməni kəndlilərinin qatlaşdıqları və sonra da Zaqafqaziya ermənilərinin əziyyət çəkdikləri sonsuz bədbəxtliklərin yaranması fikrini yaxşı-yaxşı qeyd eləmək istəyirəm.

Bir də təkrar etmək istəyirəm ki, tamamilə ağılsız ideyaların təbliği yalnız bu təbliğat süni surətdə yaradılırsa, faktlarla həddindən artıq şişirdilirsə və mətbuatda belə ideyalar hərtərəfli müzakirə edilirsə, o, cəmiyyət üçün xüsusi təhlükə törədə bilməz. Erməni təşviqatçıları heç yerdə - nə cəmiyyətdə, nə də mətbuatda özlərinə, hətta zəif dayaq da tapmırdılar.

Nə üçün?..

Səbəblər belə idi: insan hüququ uğrunda təşviqat aparan Asiya Türkiyəsində «ağır və dözülməz türk rejiminin zülmü altında inləyən» öz həmvətənlərinin azad olunması xeyrinə təşviqat aparan erməni təbliğatçıları artıq bu ideyaların mahiyyətinə görə ciddi müqavimətlə qarşılaşa bilmədilər! Əslində ermənilərin, ümumiyyətlə, insan hüququndan nə qədər məhrum edildiklərindən və Asiya Türkiyəsində onların vəziyyətinin nə qədər ağır olduğundan heç kimin yaxşı məlumatı yox idi. Hamı fikirləşirdi ki, bu cəhətdən erməni təbliğatçıları, bəlkə də, bir az ağ eləyirlər, eybi yoxdur! Bu, axı, güclü vətənpərvərlik üçün xeyirxah arzuya görə edilir!.. Deməli,

---

[5] Başqa cür desək, özlərinə ünvanlanmış ultimatum.

[6] Buna yaxşı nümunə bizim slavyanpərəst utopiyadır. Məhz, mətbuat sayəsində biz 1875-1877-ci illərdə əvvəlcə öz qardaşlarımızın, sonra isə bizim düşmənlərimiz tərəfindən indi Balkan yarımadasının hüdudlarında olan bolqarların müdafiəsinə qalxdı. Yaxın Şərqlə və burda inkişaf edən xristian dövlətləri ilə yaxşı tanış olan adamlar bu haqda danışanda artıq heç kəs onlara inanmır. Zidd fikirlərə yol verməyən mətbuatın gücü belədir.

həqiqətən, ermənilərin ümumiyyətlə, insan hüququndan məhrum olunmadıqlarını, onların «artıq heç də türk rejiminin zülmü altında inləmədiklərini» və «Qafqaz müdiriyyətinin biabırçı ədalətsizliyindən əziyyət çəkmədiklərini» sübut etməyə kimdə xüsusi həvəs ola bilər.

Lakin bütün bunlar müzakirə olunan məsələnin yalnız bir tərəfidir. Həqiqətin təsirliliyinə təkcə mətbuatda yox, həm də erməni cəmiyyəti içərisində hələlik nəsə çox ciddi mane olur. Gizli erməni təşkilatlarının əsas aləti bu təşkilatlar yaranandan bəri terror idi. Məlum təşkilatın qərar və tələbləri ilə razılaşmamağa, onu pisləməyə. məzəmmət etməyə, yaxud da onları yerinə yetirməməyə cürət edənləri qorxudan gözəgörünməz təhlükə şəklində terror.

Bu cəhətdən erməni xalqı, doğrudan da, ən səmimi rəğbətə layiqdir, çünki son 12-15 il ərzində o özünün xüsusi inqilabi təşkilatlarının terrorunun zülmü altında idi. Bu zülm, həqiqətən də, rus müdiriyyətinin biabırçı ədalətsizliyi, ya da «ağır və dözülməz türk rejimi»ndən çox məşəqqətlidir. Gizli erməni təşkilatlarının fəaliyyəti ilə tanış olmayanlar üçün bu, inanılmaz və qeyri-adi idi. Gizli erməni təşkilatlarının fəaliyyəti ilə tanışlıq o nəticəyə gətirib çıxarır ki, liberalizmin həmin nümayəndələrinin zülmkarlığı, ümumiyyətlə, müstəbidliyin ən yaxşı nümunəsi ola bilər. Erməni təbliğatçıları onlara nəzarət olunmasını heç vaxt qəbul etmirdilər. Gizli inqilabi təşkilatların və hətta ayrı-ayrı təşviqatçıların istənilən qərarı erməni xalqı üçün qətidir. Ermənilərdən heç kəs onların fəaliyyətinə zidd gedə bilməz, həm də nə mətbuatda, nə də cəmiyyətdə ağzını açıb bir kəlmə də söz deməz. Bu istiqamətdə hər bir təşəbbüs, birincisi, lazımi vətənpərvərliyin olmaması əlaməti kimi ciddi pislənilə bilər, ikincisi isə, bəzi hallarda nə az, nə çox, məhkum olunmuşların nə inzibati, nə polis tədbirləri, nə də şəxsi ehtiyat tədbirlərinin xilas edə bilmədikləri məhz, ölüm hökmü ilə cəzalandırıla bilər. Erməni xalqı gözəgörünməz və hissedilməz təhlükə ilə qarşılaşdı. Gözəgörünməz təhlükə isə həmişə daha qorxulu olur. Bunu asanlıqla təsəvvürə gətirmək olar. Məsələn, inqilabi təbliğat işinə pul yığan, ya da gizli inqilabi təşkilatların fəaliyyətini tənqid eləməyi, yaxud pisləməyi cəsarətlə boynuna götürən adamların etirazını boğmaq tələb olunan hallarda daha qorxulu olur.

Bu inqilabi təşkilatların acgöz mustəbidliyi, ucbatından erməni xalqı nə qədər qurban vermişdir? Bu məsələ ilə yəqin ki, heç kim, heç vaxt maraqlanmayıb da. Bununla belə, yalnız inqilabi hərəkatın müxtəlif gizli və kiməsə az tanış olan rəhbərlərinin kefi ilə qurban gedənlərin yalnız bir nəfərinin nekroloqu erməni vətənpərvər təşkilatlarının fəaliyyətini necə də parlaq izah edə bilər. Mən burda, hətta belə qurbanların sayını göstərməyə cəhd etməyəcəyəm. Lakin hipnoz edilmiş bir çox xalq təşviqatçılarının vicdansızlığını və insafsızlığını təsəvvür etmək üçün şəxsən yepiskop Boqosun adını çəkməyə bilmərəm.

O, mənim gözlərim qarşısında, ermənilərin bayram günü, 1896-cı il yanvarın 6-da gizli erməni təşkilatlarının nümayəndələrinin birinin bıçağı ilə öldü. Yalnız ona görə onu öldürdülər ki, yepiskop Van gənclərini Türkiyə erməniləri üçün heç bir xeyri olmayan inqilabi işdən çəkindirməyə cəsarət etmişdi. Van inqilabi komitələrindən biri başqalarını qorxutmaq üçün olduqca «zərərli» təbliğat aparan erməni kilsəsinin ən yaxşı nümayəndələrindən birini məhz, səhər tezdən ibadətə gedən vaxt öldürtmüşdü. Yepiskop Boqosun qatilləri də naməlum erməni dəstəbaşıları və təşviqatçılarının qiyabi hökmlərini yerinə yetirən yüzlərlə başqa qatillər kimi tapılmadı.

Beləliklə, demək olar ki, erməni gizli təşkilatlarının fəaliyyəti başdan-başa cəfəngiyyatdır. Bu başabəla təşkilatlar erməni xalqının azadlığı və hüquqları uğrunda mübarizə apararkən hər şeydən əvvəl, bütün xalqı onun şəxsi azadlıq hüquqlarından, səs hüquqlarından, apelyasiya hüquqlarından, özünümüdafiə hüquqlarından, sonra isə onların süni surətdə yaratdığı anarxiya dövründə insan hüquqlarından özləri məhrum edir. Hətta erməni millətinin daha görkəmli nümayəndələrinin öz ideyalarını açıq şəkildə yaymaq imkanları yox idi. Çünki həmin ideyalar erməni təşkilatlarının ideyaları ilə uyğun gəlmirdi. Bundan sonra adi vətəndaşların səslərinin nə əhəmiyyəti ola bilərdi? Səs hüququndan yalnız düzgün düşünmək imkanından məhrum olanlar və hipnozun təsiri altında gizli təşkilatlar sırasına daxil olanlar istifadə edə bilər.

Çoxlarının axtarıb tapa bilmədiyi kədərli sualların cavabı həm də öz təbliğatçı qardaşları ilə birlikdə ermənilərin əsarət halına salınmasındadır.

## IX

Mən hipnoz kimi ifadələrdən qətiyyən sui-istifadə etmək istəmədən burda bu sözü dəfələrlə işlətmişəm. İnsan həyatında hipnozun mənası hər gün qismən aydınlaşır. Biz bu yeni, yaxud daha dəqiq desək, ən mürəkkəb ictimai hadisələri nizama salan və vaxtadək az məlum olan amillə yavaş-yavaş tanış oluruq. Hər bir adam müəyyən dərəcədə bu görünməyən qüvvəyə malik olur və öz növbəsində, mütləq ətrafındakıların hipnozuna məruz qalır. Biz bəzən hiss edilmədən ayrı-ayrı adamların təsiri altına düşürük və artıq sonra bu təsirdən qurtarmaq üçün acizləşirik. Bunu öz üzərində çoxları müşahidə edə bilər. Bizə elə gəlir ki, məlum mövzunu düşünürük, dərk edirik və tamamilə müstəqil olaraq fikir söyləyirik. Lakin çox vaxt inam, anlayış və fikir əsasən, nəinki adamların, hətta məlum cəmiyyətin içərisində üzə çıxan ideyaların hipnozunun təsiri altında formalaşır.

Bütün bunlar haqqında danışarkən mən qarşıma qoyduğum vəzifədən zərrə qədər də uzaqlaşmayacağam. Əksinə, mənim burda dediklərimin hamısı istər Türkiyədə, istərsə də Qafqazda erməni məsələsinin yalnız daha parlaq təsvir edilməsinə yönəldiləcək.

Müxtəlif inqilabi təşkilatlara məxsus adamların mənimsədikləri ideyaların hipnoz altında olduğuna şübhə etmək olarmı? Erməni hərəkatının əsas rəhbərlərinin, başlıca olaraq, Londonda həyata keçirilən ideyaların hipnoz altında olmasında şübhə etmək olarmı? 1894-1896-cı illər ərzində onların bütün ağılsız hərəkətləri İngiltərə başda olmaqla Avropanın mütləq Türkiyənin işlərinə qarışacağına və burda tamamilə xüsusi vəziyyətdə bir neçə vilayət (erməni əhalisinin məlum hissəsi daxil olan) yaradacağına onların möhkəm inamlarının nəticəsidir. Erməni nümayəndələrinin «Daşnaksutyun»un ideyalarının hipnozu altında olduğuna şübhə etmək olarmı?

Həmin dövr Asiya Türkiyəsində artıq qismən tarixə çevrilib və ona düzgün və ədalətli qiymət verilməsi üçük artıq məlum perspektivə malikdir. İndi təkcə Xatisov yox, həm də bütün ermənilər yaşayan vilayətlərdə hərcmərcliyin və anarxiyanın kürdlər və türklər tərəfindən yox, məhz, elə erməni təşviqatçıları tərəfindən yarandığına şübhələnməliydilər. Onların fəaliyyəti ilə cənab Xatisov da gözəl tanışdır. Lakin «Daşnaksutyun» gənclərinin çox zərərli (istər Türkiyə, istərsə də Qafqaz erməniləri üçün) fəaliyyətinin təsadüfən knyaz Qolitsin tərəfindən yaradılmış dözülməz vəziyyətə qarşı fəal etiraz olmasını, «Daşnaksutyun»un ermənilərin insan hüquqları uğrunda mübarizə aparmasını, onun fəaliyyətinin hər cəhətdən tərifli olmasını... sübut etməliydi. Bu cür vəziyyəti yalnız hipnoz altında demək və sübut etmək olar. Gizli erməni təşkilatlarının fəaliyyəti ermənilərə heç vaxt heç nəylə gələcəkdə ödənilə bilməyən faydasız qantökmə, göz yaşları və maddi itkiyə başa gəldi. Bu təşkilatların fəaliyyətini Qafqaz müdiriyyətinin fəaliyyətindən yuxarı qoymaq, hər halda Qafqaz müdiriyyəti pis olsa da, özünün tamamilə hipnoz edilmiş vəziyyətini üzə çıxarmaq deməkdir.

Mən təkrara yol vermək istəmirəm, lakin istər-istəməz 29-30 il əvvəl bütün ermənilərin tamamilə bərabər hüquqlu rus vətəndaşları sırasına daxil olmasını bir də xatırlatmaq istəyirəm. Rus dövlətinin tərkibinə daxil olan hər hansı bir millət daha nə arzu edə bilərdi? Lakin vəziyyət məhz, ingilis hipnozunun təsiri altında ermənilər üçün tamamilə lazım olmayan gizli təşkilatlar əmələ gəlməyə başlayan vaxtdan dəyişməyə başladı. Onların zərərli fəaliyyəti ilə biz artıq tanışıq. Və gələcəkdə bu vətənpərvər təşkilatların erməni xalqına hələ nə qədər bədbəxtlik gətirəcəklərini kim əvvəlcədən müəyyən edə bilər.

Həmişə məhz, nəyə nail olduğunu aydın surətdə bilən və nəzərdə tutulmuş məqsədə çatmaq üçün heç bir vasitədən utanmayan ingilis siyasətinin ölümsaçan nəfəsinin nəticələri bax, belədir.

Tamamilə ədalətlə deyirlər ki, «kim İngiltərənin dediyi ilə oturub-durur, o, ilk növbədə, öz əleyhinə işləyir» «İngiltərə heç bir vaxt öz faydası dəyə bilənlərə əlini uzatmaz», «İngiltərənin xidmətlərindən istifadə edənlərin hamısı yalnız onun xeyrinə çalışır».

Ermənilərin bədbəxtçilikləri barədə danışan Qladstonun onlara zərrə qədər də yazığı gəlmirdi!.. O, bu millətin necə əzablı yola çıxarıldığını və məhz, qismən onun hipnozu, onun təbliği və onun səyləri ilə yaradılmış erməni iğtişaşları ilk növbədə, Qafqazda çox inkişaf edə biləcək milli ideyanı öz rüşeymləri ilə təltif etməyə artıq çoxdan can atan ingilislərin bizim Qafqaza dəxli olmalı idi. Sonra isə həmin iğtişaşlar İngiltərənin bir az əvvəl müdafiə etdiyi və Şərqdə Rusiyaya qarşı öz etibarlı rolunu tədricən itirməyə başlayan «Türkiyənin zəifləməsini» davam etdirməli idilər. Türkiyənin o tayında, onun xarabalıqlarında gənc xristian dövlətləri inkişafa başladılar. İngiltərə yaxşı başa düşürdü ki, bunlar türklərdən, Rusiyanın düşmənlərindən daha yaxşı və daha etibarlı olacaqlar. Başa düşürdü ki, Türkiyə Qafqaz tərəfdən rus dövlətini varlandırmayacaq və bizim cənub sərhədimizin bu rayonundakı hərəkat Rusiyanın qüdrətinin artması yox, əksinə, onun hörmətdən düşməsidir.

Bu həqiqəti ruslar, təəssüf ki, bu günə qədər də başa düşə bilmirlər. Həm də bir vaxtlar böyük Roma imperiyasını xatırladan Rusiyanın zəifliyini başa düşə bilmirlər.

*20 aprel 1906-cı il*

Bu sətirlər yazılandan iki il yarımdan çox keçib. Onları indi yenidən oxuyarkən mən hələ böyük inadla sübut edə bilərəm ki, «Daşnaksutyun» və onun kimi təşkilatlar istər Türkiyədə, istərsə də Qafqazda erməni xalqının bədbəxtliyinin əsas mənbələridir. Bu gizli erməni təşkilatları istər ermənilərin ruslara, istərsə də, əksinə olan keçmiş xeyirxah münasibətləri tamamilə dəyişmişlər. «Daşnaksutyun»un, «Qnçak»ın və başqa təşkilatların gələcəkdə də mövcud olması erməni əhalisinə, hətta indi konstitusiyalı Türkiyədə də yeni-yeni bəlalar gətirəcək.

*20 dekabr 1908-ci il*

Bu əlyazmanı təkrar-təkrar oxuyarkən mən istər-istəməz yenə də özümə sual verirəm ki, ermənilərin gizli təşkilatlarının fəaliyyəti ermənilər üçün - hələ maddi tələfatı demirəm - nə qədər göz yaşları, nə qədər məşəqqət, nə qədər insan tələfatına başa gəlib? Və əgər «Daşnaksutyun» və onun kimi təşkilatlar olmasaydı, ermənilər yoldan çıxmasaydılar, neçə firavan yaşayardılar, necə parlaq mövqedən istifadə edərdilər!..

İndi bədbəxt qaçqınlar da olmazdı, Asiya Türkiyəsinin Van, Bitlis və başqa vilayətlərində yeni fitnəkar qırğınlar da törənməzdi.

Buna yunanlar nümunə ola bilərlər. Onların heç bir gizli təşkilatları yoxdur və yalnız bu təşkilatların olmamasına görə, onlar Türkiyənin hər yerində, hətta 1897-ci və 1912-ci illərdə Türkiyə ilə Yunanıstanın açıq silahlı toqquşması dövründə də tamamilə kifayət qədər dinc və sakit yaşamışdılar. Əgər ermənilərin xaricdən gələn «dostları» olmasaydı ingilislərin dedikləri ilə oturub-durmasaydılar, belə cəfəng ideyalarla silahlanmasaydılar, onlar da bu vəziyyətdən istifadə edə bilərdilər.

**1 iyul 1915-ci il.**
**V. MAYEVSKİ.**